# İnsandakı hər bir oynaq sümüyünə görə sədəqə vermək lazımdır

Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyi rəvayət edilir: "İnsandakı hər bir oynaq sümüyünə görə sədəqə vermək lazımdır, günəşin doğduğu hər gündə iki insanın arasında ədalətlə hökm verməyin sədəqədir, bir kişini miniyinə mindirməyin və ya onun yükünü miniyinə yükləməyin sədəqədir, gözəl söz sədəqədir. Namaz qılmaq üçün məscidə atdığın hər addımın sədəqədir, yoldan insanlara əziyyət verən şeyləri götürmək sədəqədir".
[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) hər bir mükəlləf müsəlmanın sağlam olduğu üçün və bədən üzvlərinin yığılıb-açılması üçün sümüklərində oynaqlar yaratdığına görə Allaha şükür olaraq hər gün hər sümük birləşməsinin sayı qədər Allaha könüllü olaraq sədəqə verməsi lazım olduğunu bəyan edir. Bu sədəqə bütün yaxşı əməllərlə həyata keçirilir və yalnız pul verməklə olmur, bu əməllərdən: Sənin ədalətli olmağın və münaqişə edən iki tərəfin arasını islah etməyin sədəqədir. Aciz olan bir kəsə yardım edib onu heyvanın üzərinə mindərməyin və ya onun əşyalarını qaldırmağın sədəqədir. Zikr, dua, salam və digər xoş sözlər sədəqədir. Namaza doğru (məscidə gedərkən) atdığın hər addım sədəqədir. Yolda əziyyət verən bir şeyi yoldan götürmək sədəqədir.

https://www.sunnah.global/hadeeth/az/show/4568